

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 149 (21.559)

12 avqust 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberi qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinə dair geniş fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Amerika Birləşmiş Ştatları Konqresinin nümayəndəsi, Kiçik Biznes üzrə Palata Komitəsinin sədri, eyni zamanda, Xarici İşlər üzrə Palata Komitəsində və Hüquqi İşlər üzrə Palata Komitəsində fəaliyyət göstərən Stiv Şabotu qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi, Azərbaycanda son illərdə gedən inkişaf prosesləri, həyata keçirilən islahatlar, həmçinin bir sıra qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 45 saylı Aza seçki dairəsi üzrə 6 avqust 2016-cı il tarixdə keçirilmiş əlavə seçkilərin yekunlarının rəsmi dərc edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının

## QƏRARI

7 iyun 2016-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 45 saylı Aza seçki dairəsi üzrə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə əlavə seçkilər təyin edildikdən sonra Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən “Beşinci çağırış Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 45 saylı Aza seçki dairəsi üzrə əlavə seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı” hazırlanıb təsdiq olunmuşdur. Seçki komissiyalarının bütün fəaliyyəti “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa və təsdiq olunmuş təqvim planına uyğun təşkil edilmişdir.

45 saylı Aza seçki dairəsinin əhatə etdiyi ərazinin müəyyən edilməsi məqsədilə “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununun 27.1-ci maddəsinə uyğun olaraq 1 noyabr 2015-ci il tarixdə beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsi ilə əlaqədar muxtar respublikanın ərazisində seçicilərin orta təmsilçilik norması nəzərə alınmaqla yaradılmış 45 seçki dairəsinin qrafik təsviri nəzərə alınmış və 45 saylı Aza seçki dairəsinin əhatə etdiyi ərazi müəyyən edilmişdir.

Həmin dairə seçki komissiyasının tərkibi Qanuna müvafiq olaraq seçki gününə 55 gün qalanadək müxtəlif siyasi partiyaların və ictimai təşkilatların irəli sürdükləri bitərəf namizədlər sırasından püşkatma yolu ilə 7 nəfərdən ibarət təşkil edilmişdir. Dairə seçki komissiyası fəaliyyətə başladıqdan sonra Qanunun 32-ci və 33-cü maddələrinə müvafiq olaraq seçicilərin sayını və onların rahat səsvermələrinin təmin olunmasını nəzərə alaraq seçki gününə 35 gün qalanadək 14 seçki məntəqəsinin, 30 gün qalanadək isə hər biri 5 nəfərdən ibarət olmaqla müxtəlif siyasi partiyaların və ictimai birliklərin yerli təşkilatlarının, həmçinin seçicilərin yaşayış yeri üzrə təşəbbüs qruplarının təqdim etdikləri bitərəf nümayəndələri təmsil etməklə məntəqə seçki komissiyalarının tərkiblərinin formalaşdırılmasını başa çatdırmışdır.

Seçki komissiyaları otaqlar, rabitə vasitələri, texniki avadanlıqlar və lazımi inventarlarla təmin olunaraq onlara tələb olunan bütün sənədlər, dəftərxana ləvazimatları, əşyalar, təlimat, izah, qaydalar, əsasnamələr və digər metodiki vəsaitlər verilmişdir.

Mərkəzi Seçki Komissiyası tərəfindən dairə və məntəqə seçki komissiyaları üzvlərinin maarifləndirilməsi məqsədilə seminar-müşavirələr keçirilmiş, hüquqi, metodiki, texniki-təşkilatı köməklik göstərilmiş, seçici siyahıları, seçki bülletenləri və digər lazım olan sənədlər vaxtında hazırlanıb çatdırılmışdır.

45 saylı Aza seçki dairəsi üzrə Ali Məclisə deputatlığa namizədliklərin irəli sürülməsi kampaniyası da uğurla həyata keçirilmişdir. Bu seçki hərəkətləri nöqsansız yerinə yetirilmiş, Mərkəzi Seçki Komissiyasına heç bir şikayət daxil olmamışdır. Namizədliyini irəli sürmək istəyən 3 nəfər 45 saylı Aza seçki dairəsinin dairə seçki komissiyasına tələb olunan sənədləri təqdim edərək imza vərəqələri götürmüş və hər üçü Qanunla müəyyən olunmuş müddətdə imza vərəqələrini və onlara əlavə olunan digər sənədləri dairə seçki komissiyasına təqdim edərək namizədlikləri qeydə alınmışdır. Onlardan partiya mənsubiyyətinə görə 2 nəfəri Yeni Azərbaycan Partiyasını təmsil edir, 1 nəfəri isə bitərəfdir.

Seçki günü səsvermənin gedişi zamanı seçicilərin rahat səs vermələri təmin olunmuş, vətəndaşların seçki hüquqlarının pozulması ilə bağlı namizədlər, seçkiləri müşahidə edən şəxslər və seçicilər tərəfindən Mərkəzi Seçki Komissiyasına heç bir şikayət daxil olmamışdır.

Seçkilər başa çatdıqdan sonra səsvermənin bitməsi elan olunmuş və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa əsasən məntəqə seçki komissiyalarında maraqlı olan səlahiyyətli şəxslərin iştirakı ilə şəffaf seçki qutuları açılaraq bülletenlər hesablanmışdır. Bu proses başa çatdıqdan sonra səsvermənin nəticələri barədə məntəqə seçki komissiyalarının protokolları tərtib edilmiş və təxirə salınmadan müvafiq dairə seçki komissiyasına təqdim olunmuşdur. Dairə seçki komissiyasında məntəqə seçki komissiyaları tərəfindən təqdim olunmuş protokol göstəriciləri ümumiləşdirilməklə 45 saylı Aza Dairə Seçki Komissiyasının protokolu tərtib olunmuş və ona əlavə olunan digər sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim olunmuşdur. Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyası tərəfindən təqdim olunan protokolların və digər seçki sənədlərinin qəbul olunması Qanuna uyğun olaraq fasiləsiz həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası 45 saylı Aza seçki dairəsinin dairə seçki komissiyası və onun tərkibində təşkil edilmiş 14 mülki və 2 hərbi seçki məntəqələrinin məntəqə seçki komissiyaları tərəfindən “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununun 89-cu və 90-cı maddələrinə uyğun olaraq tərtib edilmiş səsvermənin nəticələrinin müəyyən edilməsi haqqında protokolları yoxlamışdır. Tərtib olunmuş protokollar heç bir xüsusi rəy qeyd olunmadan seçki komissiyalarının üzvləri tərəfindən imzalanmışdır. Protokolların “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa uyğun tərtib olunması qənaətinə gəlinmişdir.

Seçki məntəqələrindən səsvermənin nəticələri etibarsız hesab edilmiş və ya səsvermənin baş tutmadığı seçki məntəqələri olmamışdır.

Seçki komissiyalarından Mərkəzi Seçki Komissiyasına daxil olmuş protokollara əsasən, seçici siyahılarında qeydə alınmış 6049 nəfər seçicidən 4828 nəfəri, yəni 79,8 %-i seçkilərdə iştirak etmiş, seçki qutularında olan 4828 ədəd seçki bülletenindən 4764-ü etibarlı, 64-ü isə etibarsız hesab edilmişdir. Etibarlı hesab edilmiş səslərin sayı hesablanarkən müəyyən olunmuşdur ki, 4764 seçicidən 205 nəfəri Ələsgərov Məmmədəli Abbasqulu oğluna, 3792 nəfəri İbadov Telman Əsəd oğluna, 767 nəfəri isə Nəsirli Sərdar Salman oğluna səs vermişlər. Beləliklə, 6 avqust 2016-cı il tarixdə 45 saylı Aza seçki dairəsi üzrə keçirilmiş seçkilərin nəticələrinə görə namizəd İbadov Telman Əsəd oğlu seçicilərin ən çox səsini toplamışdır.

Mərkəzi Seçki Komissiyası Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 45 saylı Aza seçki dairəsi üzrə 6 avqust 2016-cı il tarixdə keçirilmiş seçkilərin nəticələrinə dair həmin dairə seçki komissiyasından daxil olmuş protokolları, onlara əlavə edilmiş sənədlərlə birlikdə yoxlayıb Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununun 93.2-ci maddələrinə uyğun olaraq Ali Məclisə seçkilərin ümumi yekunları haqqında Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının protokolunu və müvafiq Qərarını tərtib edərək 8 avqust 2016-cı il tarixdə dairə və məntəqə seçki komissiyalarının protokolları ilə birlikdə seçkilərin yekunlarının yoxlanılıb təsdiq edilməsi üçün Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə təqdim etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin 10 avqust 2016-cı il tarixli Qərarına əsasən, 45 saylı Aza seçki dairəsi üzrə keçirilmiş seçkilərin yekunları təsdiq edildiyindən namizədlər arasında ən çox səs toplamış İbadov Telman Əsəd oğlu həmin seçki dairəsi üzrə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilmiş hesab olunmuşdur.

Yuxarıda göstərilənlərə, “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununun 20.4-cü, 20.9-cu, 23.3-cü, 24.1.7-ci maddələrinə və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin 10 avqust 2016-cı il tarixli Qərarına əsasən, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası

**QƏRARA ALIR:**

6 avqust 2016-cı il tarixdə 45 saylı Aza seçki dairəsi üzrə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilmiş seçkilərin nəticələri dərc edilməsi üçün “Şərq qapısı” qəzetinə və elan olunması üçün Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə göndərilsin.

**Sədr: Məhərrəm Qasımov**
**Katib: Elnur Eyvazov**

11 avqust 2016-cı il

## Tikinti-quruculuq tədbirləri davam etdirilir

***Culfa rayonunda cari ilin ötən dövrü ərzində tikinti-quruculuq tədbirləri geniş vüsət alıb. Şəhər və kənd yaşayış məntəqələrinin abadlaşdırılması diqqət mərkəzində saxlanılıb. Mənzil-kommunal təsərrüfatı sektorunda xidmətlərin müasir standartlara uyğunlaşdırılması, istismarda olan binaların cari və əsaslı təmiri daha da genişləndirilib. Məlumat üçün bildirək ki, 2016-cı ilin yanvar-iyun aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 14 milyon 316 min 100 manat investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 3,7 faiz artaraq 13 milyon 100 min 300 manat olub.***

Cari ilin ötən dövründə Saltaq kəndində kənd məktəbinin, həkim ambulatoriyasının, kənd və xidmət mərkəzlərinin tikintisi, su dəyirmanının, rayon mərkəzindəki Məmməd Əsgərov küçəsindəki 17 nömrəli yaşayış binasının əsaslı təmiri başa çatdırılıb. Culfa şəhərində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin inzibati binasının və yardımçı binalarının, Gülüstan kənd və xidmət mərkəzlərinin tikintisi, Culfa şəhərində 15 nömrəli binanın əsaslı təmiri, həmçinin 15 və 17 nömrəli binaların həyətlərinin abadlaşdırılması davam etdirilir.

Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edən içməli su və kanalizasiya sistemlərinin təmiri və yeniləşdirilməsi istiqamətində də tədbirlər görülür. Belə ki, “Şəhər su təchizatı və kanalizasiya layihəsi” üzrə su və kanalizasiya xətlərinin yenidən qurulması, bu sahədə yeni infrastrukturun yaradılması məqsədilə Culfa şəhərində su anbarlarının, sutəmizləyici qurğuların, şəhərdaxili su və kanalizasiya şəbəkəsinin tikintisi sürətlə həyata keçirilir.

Bu dövrdə kənd yaşayış məntəqələrində də içməli su xətlərinin istismar vəziyyətinin yaxşılaşdırılması üçün bir sıra işlər görülüb. Belə ki, Saltaq kəndində 234 metr yeni kaptaj qazılaraq 470 metr uzunluğunda yeni su xətti çəkilib, mövcud su xəttinin 312 metri yeniləşdirilib, Xanəgah, Yaycı, Qazançı, Göydərə kəndlərində mövcud su xətlərinin, ümumilikdə, 1400 metri təmir edilib, Ərəzin kəndində su kaptajının 20 metrində bərpa işləri aparılıb, Kırna kəndində su xəttinin 550 metri yenidən qurulub.

**Xəbərlər şöbəsi**

# Milli memarlıq müasir quruculuğumuzun bəzəyidir



*Qurub-yaratmaq təbiətən yaradıcı insanlara verilmiş bir vergidir. İnsan elə bir varlıqdır ki, o, heç vaxt dünən gördüyü işlə bu gün kifayətlənməyib, öz ağıl və bacarığına arxalanaraq sabah daha yüksək zirvəyə ucalmağa can atır. Bu mənada, müasir quruculuğumuzun bəzəyi olan və insanları heyrətləndirən milli memarlıq nümunələrimizin yaşadıldığı hər yeni bina, park və xiyaban özünün xarici görkəmi ilə insanlara rahatlıq gətirir, şəhərimizə xüsusi yaraşıq verir. Memarlıq şəhər mədəniyyətinin əsas atributlarından biridir. Şübhə yox ki, qədimdə köçərilikdən oturaq həyata qədəm qoyan insan əvvəlcə özünün həyati ehtiyaclarını, daha sonra isə estetik və mədəni tələbatlarını ödəmək üçün müxtəlif binalar tikmiş, sonra bunları daha gözəl və möhtəşəm edə bilmək üçün arxitektura elementləri tapmağa çalışmışdır.*

Əslində isə bizə zövq verən memarlığın ilhamçısı təbiətdir desək, yerinə düşər. Təbiət ən böyük memardır. Təbiətdəki mükəmməl simmetriya, göy cisimlərinin qüsursuz düzülüşü, mineralların, ağacların, çiçəklərin, otların, hətta kiçik qar dənəciklərinin ecazkar formaları zaman içərisində insanların diqqətini cəlb etmiş və bu daha sonralar əsərlərə çevrilərək əbədiləşmişdir. Beləcə, dünya mədəniyyətinin inciləri sayılan məşhur memarlıq abidələri belə yaranmış və bu gün yeni texnologiya ilə yaradılan əsərlərin, bir növ, ilham mənbəyinə çevrilmişdir.

Naxçıvan Azərbaycan memarlıq məktəbinin beşiyidir. Naxçıvanın memarlıq ənənələri Azərbaycan memarlığına böyük töhfələr vermiş bir məktəbdir. Naxçıvan memarlıq mühiti tək Azərbaycanda deyil, bütün yaxın coğrafiyada, Şərq memarlığında sayılıb seçilmiş, Yaxın və Orta Şərqdə təsir dairəsinə malik olmuşdur. İslam dövrü memarlığının monumental nümunələri, əsasən, XII-XIV əsrlərdə özünün inkişaf zirvəsinə çatdığından bu dövr memarlığın, eləcə də incəsənətin intibah dövrü adlanır. Orta əsrlər memarlıq sənətinin şah əsərləri olan Möminə xatın, Qarabağlar, Gülüstan türbələri kimi abidələr özünün memarlıq şərhi, daş üzərində nəqqaşlığı, konstruktiv xüsusiyyətləri baxımından orta əsr Azərbaycan və Naxçıvan memarlığının ümumi üslub sistemini formalaşdırır. Bu mənada, orta əsr Azərbaycan memarlığının inkişafında mühüm mövqe tutmuş Naxçıvan memarlıq məktəbi inşaat sənətinin yüksək inkişaf səviyyəsi ilə digər yerlərdən seçilmişdir.

İnşaat-arxitektura işləri iqtisadi inkişafın nəticəsidir. Tarixdə də bu, belə olmuşdur. Dövrümüzdə isə ölkəmizin və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının iqtisadi-sosial inkişafının bəhrələri sürətlə tikilib istifadəyə verilən yeni binaların, yolların, körpülərin, istirahət parklarının, meydanların timsalında aydın görünür. Muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri başda olmaqla, bütün digər yaşayış məntəqələrimiz sürətlə öz simasını dəyişir, yeni üslubda tikilmiş tikililər göz oxşayır. Bu gün Naxçıvanda tikilib istifadəyə verilən yeni universitet və məktəb binaları, səhiyyə obyektləri, kənd mərkəzləri, inzibati binalar, yaşayış kompleksləri, park və əyləncə mərkəzləri, otel və qonaq evləri kimi bir çox funksional təyinatlı tikililərin inşa edilməsində istifadə olunan müasir inşaat materialları vasitəsilə milli memarlıq elementlərinin necə ustalıqla tətbiq olunduğunu görürük. Müasirliyə qovuşmaqla bərabər, milliliyimizin qorunması istiqamətində də aparılan uğurlu siyasətin nəticəsində muxtar respublikada tikilən binalar, salınan parklar müasir memarlıq tendensiyaları ilə yanaşı, qədim memarlıq ənənələrinin nəzərə alınması ilə inşa olunmaqdadır. Artıq Naxçıvanda yerli ənənələrin, üsulların ümumi Azərbaycan və dünya memarlığına xas olan cəhətləri ilə birləşməsindən özünəməxsus siması olan bir memarlıq mühiti yaranır. Nəticədə, Naxçıvan memarları memarlıq-inşaat problemlərini müvəffəqiyyətlə həll edərək gözəl memarlıq əsərləri yaradır, memarlıq mühitinə öz töhfələrini verirlər.



Naxçıvan həm də tətbiqi-dekorativ sənət növlərinin yüksək səviyyədə inkişaf etdirildiyi bir məkandır. Bu barədə fikirlərini öyrənmək üçün müraciət etdiyim Naxçıvan şəhərinin baş memarı Nicat İsayev bildirdi ki, müasir dövrümüzdə inşa olunan binalar və digər memarlıq qurğularında Naxçıvana xas olan tətbiqi-dekorativ sənətinin izlərinə tez-tez rast gəlmək mümkündür. Kərpic işləmələr, müxtəlif dekorativ naxışlar, daş nəqqaşlığı yeni tikililərdə geniş istifadə olunur. Bundan əlavə, binaların, parkların layihələndirilməsində milli ornamentlərdən olan səkkizguşəli ulduz, hilal ay, aypara, Günəş, habelə buta, qoç və digər milli memarlıq atributları uğurla tətbiq olunur. Bunlara şəhərimizdəki yeni salınmış parklardakı kilid daşlardan tutmuş Şərq hamamı və yeni bərpa olunmuş Əlincəqalayadək hər yerdə rast gəlmək mümkündür. Özünün uğurlu tətbiqinə və miqyasına görə Naxçıvan şəhərindəki Bayraq Meydanında tətbiq olunmuş landşaft memarlığı isə şəhərimizə gəlmiş qonaqların diqqətini xüsusilə cəlb edir. Ümumiyyətlə, Naxçıvan şəhərində istər yeni tikilən, istərsə də əsaslı təmir olunan binalarda milli memarlıq üslubunun tətbiq olunması həmişə diqqət mərkəzindədir.

Müasir Naxçıvanın quruculuq xəritəsi çox genişdir. Muxtar respublikanın paytaxtından tutmuş ucqar kəndlərədək hər yerdə tikilən və əsaslı təmir olunan yeni obyektlər bu torpaqda iqtisadi və sosial həyatın dinamikasından, insanların məskunlaşma arzularından xəbər verir. İstər Naxçıvan şəhərində tikilən çoxmərtəbəli bina, istər yol üzərində inşa olunmuş bulaq-abidə, istər ucqar bir dağ kəndindəki kənd mərkəzi binası, istərsə də yenicə bərpa olunmuş Gülüstan türbəsi olsun. Bütün bunların hamısı bizim, Azərbaycan xalqının, naxçıvanlılarındır. Bu tikililərdə yaşadılan milli memarlıq elementləri isə xalqımızın minillik keçmişi, bu



günü və gələcəyi arasında inşa olunan mənəvi körpünün dayaqları, mədəniyyətlərarası dialoqun etibarlı ünsürləridirlər. Bunlar əbədiyaşardırlar. Çünki xalqımızın uca Tanrı sevgisi, bütün millətlərə və xalqlara qarşı tolerantlığı, təbiətə qayğısı və insana məhəbbəti bu əsərlərdə daşların dili ilə yaşadılır. Yaşadılır ki, dünyəvi dəyərlər də yaşadılsın.

# Culfada emal sənayesi yeni inkişaf mərhələsindədir

***Yeni iqtisadi şəraitdə ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər arasında bölgələrə məxsus yerli istehsal-əmək ehtiyatlarının iqtisadi dövriyyəyə cəlb olunması hesabına daha çox emalyönümlü müəssisələrin işə salınması, çox sadə texnologiya ilə başa gələn istehsal sahələrinin yaradılması ön planda durur. Muxtar respublikamızın müxtəlif rayonlarının bu sahədəki potensialının və mövcud vəziyyətin təhlili istiqamətində apardığımız araşdırmaların növbəti ünvanı Culfa rayonu idi. Culfada apardığımız təhlillər burada emal sənayesinin inkişaf mərhələsində olduğunu deməyə əsas verir.***



Culfa rayonu Naxçıvan Muxtar Respublikasının geniş əhali və torpaq ehtiyatlarına sahib, əlverişli iqlimə və mineral sərvətlərə, müasir yol-nəqliyyat infrastrukturuna malik olan ərazi vahidlərindəndir. Rayonda 1 şəhər, 22 kənd və 40 mindən artıq əhali vardır. Culfalılar əkinçilik, bağçılıq, bostançılıq və heyvandarlıqla məşğul olub yüksəkkeyfiyyətli məhsul istehsal edirlər. Naxçıvan bazarında hamının seçmədən bəyənib aldığı Bənəniyar üzümü, Milax pomidoru, Yaycı soğanı, Ləkətağ balı, Ərəfsə pendiri və daha çox sayda Naxçıvan nemətləri məhz Culfa kəndlisinin məhsuludur. Bunlardan başqa, Culfanın təbii-mineral sərvətləri hesabına istehsal olunan kərpic və üzlük daş, qazlı suların və dondurmaların istehsalında mühüm şərt olan bərk karbon qazı da bu rayonda emal olunub istehsalçılara çatdırılır.

İqtisadiyyatda emal sənayesinin əhəmiyyəti haqqında çox deyilib. Təkrarçılıq olmasın deyə, bunlar haqqında bir daha söhbət açmağa ehtiyac duymuruq. Ancaq bir reallıq var ki, bu gün muxtar respublikaya idxal olunan bəzi məhsulları digər rayonlarımız kimi, Culfada da istehsal edib daxili bazarı təmin etmək və hətta ixracata da göndərmək olar. Bu baxımdan muxtar respublikamızda istehsal oluna biləcək bəzi məhsulların hələ də xaricdən və ölkəmizin başqa yerlərindən gətirilməsi qarşıda çox işlərin olduğunu göstərir. Elə Culfada da ilk araşdırmalarımız bu qənaəti formalaşdırır. Belə ki, Culfa rayonunda 200-ə yaxın qeyri-istehsalyönümlü sahibkarlıq sahəsi olduğu halda, cəmi 44 emal-istehsal sahəsi vardır. Bu müəssisələrə profilləri üzrə nəzər saldıqda onların 23-nün çörəkbişirmə üzrə istehsal sahələri olduğu görünür. Bundan başqa, rayonun Darıdağ massivində karbon qazı istehsalı, Kırna kəndində broyler, Yaycı kəndində kərpic və üzlük daş, Bənəniyar kəndində torba və kəpək, Əbrəqunus kəndində meyvə şirələri, Culfa şəhərində göbələk, Camaldın kəndində un istehsalı sahələri vardır. Bunlardan başqa, rayonda 4 mebel və 4 plastik qapı-pəncərə istehsalı sahəsi də fəaliyyət göstərir. Rayonun Kırna, Camaldın və Saltaq kəndlərindəki su dəyirmanları da əhalinin yetişdirdiyi taxılın emal olunmasında əhəmiyyət daşıyır. Ümumilikdə, bu müəssisələrdə təqribən 200 nəfər işlə təmin olunub. Emal müəssisələrinin, əsasən, Culfa şəhərində və rayonun Yaycı, Bənəniyar, Əbrəqunus kimi iri kəndlərində daha çox olduğu görünür. Ancaq halbuki rayonun bir-birinə çox yaxın olan Əlincə, Xoşkeşin, Saltaq və Xanəgah kəndlərində də aşıb-daşan meyvəsinin, yaxud ət-süd məhsullarının emal olunaraq ilboyu daxili bazarda satılması mümkündür. Doğrudur, indi muxtar respublikamızın hər yerində kəndlinin vaxt itirib şəhərə və rayon mərkəzinə gəlmədən ona lazım olan əksər ticarət, məişət və işgüzar xidmətləri kənddəcə alması imkanları yaradılıb. Ancaq kənddə yaradılan hər yeni istehsal sahəsi, burada işləyən hər bir nəfər işçi bu qədər sayda ailənin gəlirlərlə təmin olunması və deməli, həyat səviyyəsinin yüksəlməsi, sosial problemlərin həlli deməkdir. Ona görə də ucqarlarda çox deyil, cəmi beş nəfərin işlə təmin olunduğu kiçik bir emal müəssisəsi öz iqtisadi əhəmiyyətinə görə şəhərlərdəki ortaölçülü müəssisələrlə müqayisə olunmasa da, regional inkişaf və sosial məsələlərin həlli baxımından onlardan heç də geri qalmır. Bu baxımdan muxtar respublikamızın hər yerində olduğu kimi, Culfa rayonunun kəndlərində də fəaliyyət göstərən hər bir kiçik istehsal müəssisəsi dövlətimizin xüsusi fikir verdiyi regional inkişaf prioritetlərinə xidmət edən addımdır. Odur ki, Culfa rayonunda da bir vaxtlar kifayət qədər geniş həcmdə fəaliyyət göstərmiş ət və üzüm emalı, şərab istehsalı sahələrinin yenidən dirçəldilməsi üçün layihələr hazırlanması iqtisadiyyat məsələləri üzrə aidiyyəti qurumları düşündürməlidir.

"Əylis" Məhdud Məsuliyyətli Cəmiyyəti un istehsalı və çörək bişirilməsi üzrə ixtisaslaşıb. Camaldın kəndinin ərazisində yerləşir. Sahibkar Nazim Fətəliyev deyir ki, dəyirmançılıq işi ilə 2003-cü ildən məşğul olur. Gündəlik istehsal gücü 50 ton olan dəyirmanda müasir avadanlıq quraşdırılıb. "Nuranə" əmtəə nişanı ilə istehsal olunan una tələbat böyükdür. Elə onun özünün də lavaşbişirmə sahəsi vardır. Beş nəfərin daimi işlə təmin olunduğu müəssisədə işçilərin normal fəaliyyəti üçün hər cür şərait yaradılıb. Culfa muxtar respublikamızın iri taxıl istehsalçısıdır. Ona görə də dəyirman xammal qıtlığı hiss etmir.

Muxtar respublikamızda Saltaq lavaşını hamı tanıyır. Bu kənddə üç lavaşbişirmə müəssisəsi fəaliyyət göstərir. İbrahim Abdullayevə məxsus lavaşbişirmə müəssisəsi 2011-ci ildən fəaliyyət göstərir. Sahibkar öz vəsaiti hesabına bu işi qurduğunu deyir. Beş nəfərin işlə təmin olunduğu müəssisədə gün ərzində 500 kiloqram dadlı, ətirli Saltaq lavaşı bişirilir. Alıcı problemi də yoxdur. Hər gün alınan sifarişləri yerinə yetirmək üçün servis maşını ilə Naxçıvan şəhərində və Culfa kəndlərindəki daimi müştərilərə təzə lavaş çatdırılır. Sahibkar yaşadığı kənddə, öz həyatında qurduğu biznesdən çox razı qaldığını bildirdi, dövlətin yaratdığı bu imkanlara görə minnətdarlıq etdi. Söhbət əsnasında gələcəkdə şirniyyat məhsulları istehsal etməyi də planlaşdırdığını dedi.

Yaycılı Nadir Vəlixanovun sahibkarı olduğu kərpic və üzlük daş istehsalı müəssisəsi artıq 10 ilə yaxındır ki, fəaliyyət göstərir. Bu istehsal sahəsində 8 nəfər daimi işlə təmin olunub. Sədərəyin qumu, Kəngərlinin sementi və Yaycının suyu ilə hasilə gəlib, həyətləri, yolları bəzəyən yüksəkkeyfiyyətli üzlük daş və kərpiclərə tələbat böyükdür. Hər gün istehsal olunan 40 kvadratmetrə yaxın üzlük daş və 500-dən artıq kərpicin Culfa ilə yanaşı, Ordubad, Babək və Naxçıvan şəhərindən də alıcıları vardır.

Görürük ki, Culfadakı sahibkarlar işlərindən məmnundurlar. Niyə də olmasın? Muxtar respublikamızda sərbəst biznes üçün hər cür şərait yaradılıb. Xammal, fasiləsiz elektrik enerjisi, su, təbii qaz var. Yol-nəqliyyat infrastrukturu heç zaman belə rahat olmayıb. Əgər daxili bazar da qorunursa, onda nəyə görə xammalı çırmayıb özümüz iş görməyək? Doğrudan da, misal üçün, gözəl qablaşdırılmış kərə yağı istehsalı zeytun yağı istehsal etmək deyildir ki, bizdə onun xammalı olmasın. Elə isə Culfa kəndlisinin təsərrüfatlarındakı 100 mindən artıq xırdabuynuzlu heyvanın, 15 mindən artıq iribuynuzlu mal-qaranın məhsulunu da gələcəkdə emal edəcək bir sahibkara indidən uğurlar arzulayırıq.

*Səhifəni hazırladı:* Əli CABBAROV



# Ağbulağın ağ günləri

***Ötən əsrin 80-ci illərinin sonlarında, 90-cı illərin əvvəllərində istər şəhər və qəsəbələrimiz, istərsə də kəndlərimizdə uçuq-sökük binalar, yararsız tikililər, çala-çökək yollar, daş-kəsəkli səkilər və tikanqanqal basmış ərazilər, əkilməyən torpaqlar gözdağına çevrilmişdi. Təbii gözəllikləri ilə dillər əzbəri olan Şahbuz rayonunun qonaqları da bu mənzərədən təəssüf hissi keçirirdilər. O dövrdə bölgəsindən asılı olmayaraq, hər bir yaşayış məntəqəsində elə rayonumuzda olduğu kimi, eyni problemlər və eyni ab-hava hökm sürürdü. Zaman isə öz axarında davam edərək hər keçən günü tarixə verirdi. Həmin vaxtlarda Şahbuza gələn bir qələm sahibi ilə həmsöhbət olmuşdum. O görüşdən xatirimdə qalanları sonralar yaddaş dəftərimə köçürmüşdüm.***

Şahbuzun yenilənən simasına, inkişaf və tərəqqisinə aid bu yazını yazarkən həmin söhbəti bir daha xatırladım. Həmsöhbətimin təəssüratları: "Eşitdiyimə görə, bu rayonda bir-birindən gözəl təbiət mənzərələrinə malik olan dağ kəndləri çoxdur. Elə buna görə də Şahbuza üz tutub o dağ kəndlərində olmaq mənim üçün bir arzuya çevrilmişdi. Ancaq onu da eşitmişdim ki, buludların qaşqabağı tutulanda bu kəndlərə gedən yollar, demək olar ki, bağlanır. Ona görə də Şahbuza avqustda gəldim ki, istədiyim kəndə gedə biləm. Rayonda olarkən buranın sanki bir təbiət abidəsi olduğunu gördüm. Təbiətə vurğunluğumdan rayonun ən ucqar dağ kəndinə getmək istədim. Lakin mənə bildirdilər ki, bu kəndlərdən ancaq yolunun münasib olanını – yəni uzaq olsa da, ən rahat olanını seçmək məsləhətdir. Mən isə bunun fərqinə varmadan dəniz səviyyəsindən çox yüksəkdə yerləşən kəndlərdən birinə getmək istədim. Yolum Gecəzur (indiki Ağbulaq kəndi – müəllif) tərəfə oldu. Bir neçə kəndi keçəndən sonra yol yoxuşa dikəldi. Həmin vaxt mənimlə yolyoldaşı olan rayon sakini Allahverdi Həziyev öz-özünə danışırmış kimi astaca dedi:

– Hə, indi bu sərt yoxuşları qalxmağa oğul istəyirəm.

Onu da qeyd edim ki, rayon rəhbərliyi tərəfindən bizə ayrılan "QAZ-69" markalı təzə minik maşınının sərt yoxuşları asanlıqla qalxacağına məndə bir əminlik vardı. Elə bu arxayınçılıqla yolyoldaşımla söhbət etməyə başladım. Amma getdikcə daralan kənd yolunun vahiməsi məni qorxutmağa başlayırdı. Yolun vahiməsini unudum deyə, başımı nə qədər söhbətə qatmaq istəsəm də, o yan-bu yandan söz salsam da, yola baxdıqca nəfəsim kəsilir, oturacağın dəstəklərindən daha bərk-bərk yapışaraq yerimdə dikəlir və sanki divar kimi yamaca dırmaşan maşının yükünü yüngülləşdirməyə çalışırdım. Torpaq yolun yağış sularından yuyulmuş hissələrində maşının təkərləri sanki buz üstündəymiş kimi sürüşür, sürücünün səy göstərməsinə baxmayaraq, istiqamətini tez-tez dəyişirdi. Qorxudan qulaqlarım uğuldayırdı. Elə bilirdim ki, neçə saatdır, yol gedirik. Yoxuşa qalxan yol isə bitmək, tükənmək bilmirdi. Və beləcə, gərgin bir vəziyyətdə Allaha üz tutub sağ-salamat bu kəndə yetişmək diləyini təkrarlaya-təkrarlaya dağların əhatəsində yerləşən kəndə çatdıq.

Bakının nəfəs almaq mümkün olmayan avqust bürküsündən sonra belə bir sərinliyə düşəcəyimi ağlıma da gətirmirdim. O anda düşündüm ki, heyif, belə bir havası, suyu, təbii mənzərələri olan kəndin adicə rahat maşın yolu belə, yoxdur. Hava getdikcə sərinlədi, biz isə üşüməyə başladıq. Amma kəklikotunun, biçənəklərin ətri dolan könlüm elə bil ki, dünyaya baxmaq üçün ən yaxşı yer olan bu ucalıqdan dağa dönmüşdü. Yolların qıraqlarındakı kolların dibindən pırıltı ilə uçan kəkliklər, bildirçinlər, sərin dağ mehindən yırğalanan otlar, çiçəklər adama dünyanın bütün dərdlərini unutdururdu sanki. Amma kəndə doğru irəlilədikcə yenə də təəssüf hissi





məni öz ağuşuna alırdı. Yolboyu gördüyüm başqa kəndlər kimi, burada da bitib-tükənməyən bir solğunluq, sakit bir yaşam və yetim bir səssizlik vardı. Kənddə qarşımıza çıxan ahıllar və yaşlı insanlar bizi çox mehribanlıqla salamlayır, evə dəvət edirdilər. Kəndlərində hər şey kasad olan insanların könül dünyasında bir gözəlliyin olduğu onların simasından oxunurdu. Daşlı-çınqıllı kənd yolunun döngəsində qarşımıza atın cilovundan tutmuş bir kişi çıxdı. Atın üstündə isə 10-12 yaşlarında bir uşaq oturmuşdu. Kələ-kötür məhəllə yolu dar olduğundan sürücü maşını saxlamağa məcbur oldu. Çöhrəsindən sağlamlıq, gümrahlıq yağan ağsaqqal bizi salamladı və sonra gülə-gülə dedi: "Biz ikiyik, atımız bir". Əvvəl bu fikri anlamasaq da, sonra kişiyə yanımızda yer verib yolyoldaşı olduq. Söhbətə körpü salan kənd adamı sanki uzun illərdən bəri ürəyini boşaltmağa axtardığı bir adamı tapmışdı. Həm gileyli, həm incik, həm də təəssüf hissi ilə fikirlərini bildirən ağsaqqal arada üzümə baxaraq sualımı gözləmədən ürəyindəkiləri boşaldırdı:

– Rahat yaşamaq üçün heç nəyimiz yoxdur. Əlimizdə, ovcumuzda olansa əkin-biçindən, bir də bağbağatdan Tanrı verəndir. Gördüyünüz kimi, bu yolla harayasa satmağa mal aparmaq, qazanc eləmək bir arzudur bizdən yana. Hərə öz başını birtəhər saxlayır. Kimdi, bizi yadına salan. Kəndimiz öz hesabına yaşayır, çətin günlərini birtəhər yola verir. Baxan yox, maraqlanan yox. Yolumuz da, körpümüz də, suyumuz da, əkin-biçinimiz də özümüzə aiddir. Kənddə oturmağa bir yer belə, yoxdur ki, torpaqdan baş qaldıranda günün bir neçə saatını tay-tuşunla orada keçirəsən. Burada cəmi bir telefon olan ev var ki, hayımızda da, vayımızda da o qapını döyürük. O da işləyə, işləməyə. Xəstələnəni, yıxılanı nə bir xəstəxanaya, nə bir həkimə vaxtında çatdıra bilirik. Çətinlik bir deyil, iki deyil, ha danış ki, qurtaracaq. Allah ümidinə yaşadığımız bu kənddən cavanlarımız da üz çevirib. Bağımızdan, bağatımızdan, malımızdan, heyvanımızdan götürdüyümüz məhsulun artıq qalanını satmağa yer tapa bilmirik. Ona görə də hər kəs özünə lazım olan qədər əkir-biçir, birtəhər dolanır. Kənd sovetinin də adı var, özü yox.

Söhbət əsnasında həmsöhbətimdən soruşdum ki, burada mədəniyyət evi, klub, kitabxana, xəstəxana yoxdurmu? Ağsaqqal acı təbəssümlə cavab verdi:

– Niyə yoxdu, var. Uçuq-sökük bir neçə binada guya mədəniyyət evi, klub, xəstəxana var. Amma biz o binalarda adam, onların qapısını açıq görmürük ki, görək onlar nə işlə məşğul olurlar. İndi ay qonaq qardaş, sən də görək, burada o sən deyənlər var, ya yox? İndi inanırsan ki, biz Allah ümidinə yaşayırıq...

Dərdli yolyoldaşımın çeşid-çeşid giley-güzarı məni də öz təsiri altına saldı. Bu söhbət məni həmin ünvanlara getməyə "ruhlandırdı". Gözümlə görmək istədim adı olub özü olmayan təşkilatları. Üz tutduğum ünvanlar–kənd orta məktəbi (əgər buna məktəb demək olardısa), mədəniyyət müəssisələri, xəstəxana öz görkəmi ilə burada ağsaqqalın dediyi kimi, heç bir işin olmadığından xəbər verirdi. Kəndin ümumi görkəmində hiss olunan atılmışlıq, unudulmuşluq bu binaların uzaqdan "gəl-gəl" deyən simasından oxunurdu. Bu, kəndin alababat evlərindən, yollarından, məhəllə küçələrindən də bəlli olurdu. Elə onda düşündüm ki, doğrudan da, atalarımız demişkən, "Görünən dağa nə bələdçi". Sonra da təəssüf hissi ilə düşündüm ki, görəsən, bu qədər təbii gözəllikləri və sərvətləri ilə gözoxşayan kəndlər nə səbəbdən unudulub, yaddan çıxıb? Dəniz səviyyəsindən 2000 metrə qədər yüksəklikdə olan kəndlərdə gözoxşayan nə bir tikili gördüm, nə bir yenilik, nə də bir rəvanlıq. Səliqə-sahmandan, təmizlikdən isə danışmağa dəyməz. İllər lazımdır ki, burada yığılıb qalan, ətrafa səpələnən tullantılar təmizlənsin. Çay kənarları, boş qalmış ərazilər məişət tullantılarının "bazasını" xatırladır. Bunlar bir yana qalsın. Yolboyu gördüyüm və ürəyimi ağrıdan bir mənzərəni də unuda bilmirəm. "Boynu vurulmuş" ağac kötükləri, kəsilmiş kollar, qurumuş ağaclar təbiətə də insanların biganəliyinin, laqeydliyinin göstəricisi kimi ürək ağrıdır. Yolçusu olduğum yolların keçdiyi dağlarda, dərələrdə təbii qanunauyğunluqla ikibir, üçbir baş-başa vermiş cır ağaclardan başqa, nə bir yaşıllığa, nə də cavan tinglərə, bağlara rast gəldim. Onda öz-özümə sual verdim ki, görəsən, yurdumuza, kəndlərimizə və onun əsrarəngiz sərvətlərinə nə vaxtsa sahib çıxan olacaqmı? Nə vaxtsa yurdumuzun bənzərsiz təbii sərvətlərinin qədir-qiyməti bilinəcəkmi? Axı bu uca dağlar, gen dərələr, buz bulaqlar, dərdlərə məlhəm təmiz hava hər yerdə olmur. Onlar bizə Tanrı bəxşişidir. Heyif ki, sahibi yoxdur..."

Bu fikirlər 1989-cu ilin avqustunda rayonumuza gəlmiş qələm sahibinin söhbətindən yadımda qalanlardır. Onda Vətənimizin vətən sevgisinə, övlad məhəbbətinə möhtac olduğu illər idi. Xoş gün axtaranlar sabaha böyük ümidlərlə baxanlara sual verirdilər: qazı, işığı, yolu, rabitəsi, iş yeri, yaşayış şəraiti olmayan bir yerin gələcəyi xoşbəxt ola bilərmi? Bunlar xülyadır deyənlər yaxın-uzaq ellərə üz tutdular. Ulu öndərin hakimiyyətə qayıdışı ilə muxtar respublikamızda insanlar işıqlı sabahların, gözəl günlərin eşqinə qol çırmayıb işə girişdilər. Çətinliklər tədricən öz həllini tapmağa başladı. Zaman bizim xeyrimizə irəliləyirdi. Bütün işlər el birliyi ilə görülürdü. Buna görə də bizi də öz arxasınca aparan zaman Naxçıvanımızı günbəgün dəyişdi, yeniləşdirdi. Şəhər, qəsəbə və kəndlərimiz az qala saatbasaat dəyişdi, inkişaf etdi. Şahbuz da quruculuq işlərindən öz payını aldı.

Bizdə el arasında deyərlər ki, gözəllik ağacı qədirbilən insanın zəhmət təri ilə suvarılır. Bu mənada, muxtar respublikamızda aparılan quruculuq işlərindən Şahbuzun da ucqar dağ kəndlərinə, eləcə də Ağbulağa böyük pay düşüb.

İndi heç bir naxçıvanlını, o cümlədən şahbuzlunu nə iş, nə yaxşı yaşayış, nə məişət problemləri, nə satım, harada satım, nə əkim, necə əkim, hara gedim, harada qalım kimi suallar düşündürmür. Çünki bütün bu sualların cavabı olan islahatlar həyata keçirilib. Nəticədə, regionumuzda yaşayan hər bir insanın iş yeri, yaxşı yaşayışı, məişət şəraiti var. Əkən, biçən üçün dövlət dəstəyi günbəgün güclənir. İstehsalçının alıcı problemi yoxdur. Kim harada, necə yaşamaq istəyirsə, arzularını reallaşdıra bilir. Məktəblər, sosial obyektlər, müasir infrastruktur sahələri quruculuq siyasətinin ərməğanı kimi yurd yerlərimizi gözəllik ünvanına çevirib. Yollar, səkilər, parklar, istirahət guşələri müasir tələblərə



uyğun qurularaq insanların istifadəsinə verilib. İndi Şahbuzun ən ucqar sərhəd kəndində belə, müasir məktəb binaları, mədəniyyət və səhiyyə müəssisələri üçün milli arxitektura ənənələrinə uyğun obyektlər istifadəyə verilib. Yerli istehsal günbəgün artır, sahibkarlığın genişlənməsi üçün hərtərəfli şərait yaradılır.

Yazının əvvəlində 1989-cu ildə Şahbuz rayonuna qonaq gələn həmkarımın gördüyü Ağbulaq kəndinin bu günündən, onun tərəqqisindən uzun-uzadı danışmağa lüzum yoxdur. Təkcə bircə faktı qeyd etmək kifayətdir ki, bu kənd haqqında təəssürat yaransın. Bu ilin ötən dövrü ərzində dünyanın ondan artıq dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirləri Şahbuz rayonunun Ağbulaq kəndində olub. Kənddə yaradılan istirahət mərkəzinə respublikamızın hər bir bölgəsindən, o cümlədən xarici ölkələrdən istirahətə və gəzintiyə gələnlərin sayı bu günlər daha da çoxalıb. Kənd turizminin inkişafı üçün hərtərəfli şəraitə malik olan, yüksək infrastruktur sahələrinin yaradıldığı Şahbuzda hər bir kəndin, yaşayış məskəninin müasir insanın istəklərinə uyğun qurulması deməyə əsas verir ki, muxtar respublikamız yaxın gələcəkdə turizm üçün ən seviləcək region kimi dünyada tanınacaq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə həyata keçirilən siyasətin muxtar respublikamızda davam etdirilməsi bizi arzularımıza çatdırıb. Ağbulaq kəndinin indiki görkəmi fotoşəkillərdə öz əksini tapır.

**Şəhla NƏBİYEVA**

## Suvarma və içməli su təchizatında heç bir problem yoxdur

***Şərur rayonunda meliorasiya-irriqasiya tədbirlərinin həyata keçirilməsi diqqətdə saxlanılır. Arpaçay dəryaçası əsaslı şəkildə təmir olunub, mövcud su qovşaqları yenilənib.***

Rayonda əkin sahələri, əsasən, Arpaçay dəryaçası, həmçinin "Şərur", "Löhmə", "İbadulla" və "Çərçiboğan" kanalları, Araz çayından sudartan nasos stansiyaları və subartezian quyuları vasitəsilə suvarılır. Şərur Rayon Suvarma Sistemləri İdarəsi tərəfindən bu ilin ilk 6 ayında nasos stansiyalarının, kanal və arxların, içməli su xətlərinin, subartezian quyularının, hidrotexniki qurğuların əsaslı təmiri diqqət mərkəzində saxlanılıb. 125 kilometrə yaxın məsafədə beton və torpaq məcralı kanallar, drenaj şəbəkələri lildən təmizlənib.

Püsyan, Tumaslı, Ərəbyengicə, Kürçülü su toplayıcılarında, Şərur və Zeyvə kanallarında, ara arxlarda, Tumaslı kollektorunda lildən təmizləmə işləri başa çatdırılıb. Ələkli və Vərməziyar kəndləri arasındakı 3 kilometr uzunluğunda olan suvarma boru xəttinin çəkilişi tamamlanıb, Arpaçay-Tənənəm-Püsyan selovunda selə qarşı mübarizə tədbirləri həyata keçirilib.

Əhalinin içməli su təchizatı da diqqət mərkəzindədir. Aralıq kəndində hər biri 4 min kubmetr su tutan 2 anbar fəaliyyət göstərir. Rayonun 14 kəndinə, həmçinin Kəngərli rayonunun Qıvraq qəsəbəsinə, Qabıllı və Xok kəndlərinə bu anbarlardan nasoslarla içməli su çatdırılır.

Kollektivin gücü ilə ötən müddət ərzində 172 subartezian quyusunda əsaslı və cari təmir işləri aparılıb, o cümlədən 25 quyuya yeni nasos qoyulub, 2 quyu bərpa edilib, 2 quyu isə yenidən qazılıb istifadəyə verilib.

**Elman MƏMMƏDOV**

# İdman federasiyaları cari ilin birinci yarısını necə başa vurub?

*Güləş, Boks, Şərq Döyüşü Sənəti və Karate-do federasiyalarının uğurları daha çoxdur*

*Bu gün muxtar respublikada müasir idman infrastrukturu yaradılıb. Hər ay Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına uyğun olaraq, turnirlər, yarışlar təşkil olunur. Təbii ki, belə yarışların təşkili yetişməkdə olan idmançıların yarış təcrübəsinin artmasına öz təsirini göstərir. Hazırda muxtar respublikada 12 idman federasiyası fəaliyyət göstərir və onlar cari ilin ilk 6 ayı ərzində bir çox uğura imza atıblar. Düzdür, "uğur" kəlməsi hamısına aid olmasa da, bəzi federasiyalar yetişdirdikləri idmançıların nailiyyətlərinə sevinə bilərlər.*

İlk 6 ay ərzində uğur qazanan federasiyalar muxtar respublika üçün Avropa çempionu yetişdirməklə yanaşı, həm də beynəlxalq turnirlərdə mükafatçılar siyahısına düşməyi bacarıblar. Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirməsi Nail Hüseynov aprel ayında Ukraynanın Xarkov şəhərində keçirilən kikboksinq üzrə Avropa çempionatında Azərbaycanın Dövlət Himnini səsləndirməyə müvəffəq olub. Ümumiyyətlə, aprel ayını federasiya üçün uğurlu təqvim hesab etmək olar. Bu ay ərzində federasiyanın yetirmələri əvvəlcə MMA üzrə Azərbaycan çempionatında çıxış ediblər. 1 qızıl, 8 gümüş və 1 bürünc medal qazanan idmançılarımız komanda hesabında da mükafatçılar sırasına düşüblər. Elə həmin ay kikboksinq üzrə Azərbaycan birinciliyində idmançılar 1 qızıl, 2 gümüş medal qazanıblar. Qeyd edək ki, federasiyanın yetirmələri fevral ayında da keçirilən analoji birincilikdə 6 müxtəlif əyarlı medala layiq görülüblər.





Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirmələrinin də uğurları alqışlanasıdır. Belə ki, Rusiya Federasiyasının Anapa şəhərində keçirilən Avropa çempionatının bürünc medalını qazanan Sərxan Əliyev Azərbaycan birinciliyində də fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. Ölkə birinciliyində Muxtar Fərzəliyev və Toğrul İsmayıllı da mükafat qazanan idmançılarımızdandır. Boks Federasiyasının digər yetirməsi Tayfur Əliyev isə fevral ayında Macarıstanın Debretsen şəhərində keçirilən beynəlxalq turnirin qalibi, Bakıda təşkil edilən "İpək Yolu" beynəlxalq turnirinin üçüncüsü olub. Federasiyanın uğurları bununla bitmir. Belə ki, İran İslam Respublikasında keçirilən turnirdə Naxçıvan boksçuları 2 qızıl, 3 gümüş və 2 bürünc medal qazanıblar.

Cari ilin ilk yarımilində muxtar respublika idmanına öz töhfəsini verən federasiyalardan biri də Güləş Federasiyasıdır. Federasiyanın yetirmələri Naxçıvanda keçirilən yarışlarla yanaşı, ölkədaxili və beynəlxalq turnirlərdə də uğurla çıxış ediblər. Belə ki, idmançılarımızdan Abbas Məmmədov cüdo üzrə Türkiyənin Adana və Ukraynanın Odessa şəhərlərində keçirilən beynəlxalq turnirlərin qalibi olub. O, həmçinin Şəmkir şəhərində təşkil olunan respublika turnirində mükafatçılar sırasına düşüb. Güləşçimiz Abbas Həsənov isə Balakən şəhərində məktəblilərin X respublika oyunlarında bürünc medal qazanıb.

Karate-do Federasiyasının yetirmələri də ilk 6 ayı uğurla başa vurublar. İran İslam Respublikasının Astara şəhərində keçirilən beynəlxalq turnirdə 3 medal qazanan karateçilərimiz ölkədaxili turnirlərdə də böyük sevinc anları yaşayıblar. Azərbaycan Milli Karate Federasiyasının təşkil etdiyi 3 müxtəlif turnirdə muxtar respublikanı 20-dən çox idmançı təmsil edib və onlar, ümumilikdə, 9 medal qazanıblar.

Uğurları ilə seçilən federasiyalardan biri də Şahmat Federasiyasıdır. Zəka sahiblərimiz cari ilin ilk yarısında Türkiyənin Kahramanmaraş, Ordu, Çorum və Manisa şəhərlərində keçirilən beynəlxalq turnirlərdə qüvvələrini sınayıblar. Sevindirici haldır ki, şahmatçılarımız bu turnirlərdə Naxçıvanı layiqincə təmsil ediblər. Federasiyanın 21 yetirməsi Biləsuvar şəhərində keçirilən Azərbaycan çempionatının seçmə yarışlarında iştirak edib və 3 vəsiqə qazanıb. 12 yaşa qədər şahmatçıların Azərbaycan çempionatında isə 4 şahmatçımız mübarizə aparıb və bir idmançımız üçüncü yerə layiq görülüb.

Futbol Federasiyası isə Azərbaycan zona birinciliklərinin qalibi olan 10, 11, 12, 13 və 14 yaşlı futbolçuları, həmçinin VII siniflər arasında "Məktəbli kuboku" turnirinin qaliblərini Bakı şəhərində təşkil olunan final mərhələsinə göndərib.

Uğur qazanmaq hər bir idmançının arzusu, təmsil etdiyi federasiyanın borcudur. Buna nail olmaq üçün qətiyyətli addım atmaq isə bunlardan daha vacibdir. Təəssüflər olsun ki, 2016-cı ilin ilk 6 ayı ərzində Basketbol, Atıcılıq, Hava və Ekstremal İdman Növləri, Voleybol, Paralimpiya və Yüngül Atletika federasiyaları yalnız Naxçıvan Muxtar Respublikasında təşkil olunan idman tədbirləri ilə kifayətləniblər. Halbuki muxtar respublika rəhbəri tərəfindən bu idman növlərinin kütləvi hal alması və təbliğ olunması üçün hər bir şərait yaradılıb. Belə olduqda isə idmançı yetişdirmək və onların ən azından ölkədaxili turnirlərdə iştirakını təmin etmək heç də çətin deyil.

**Ceyhun MƏMMƏDOV**

*Yurdumuzun nemətləri*

***Qarpız deyəndə ağıla ilk gələn Nehrəm qarpızı olur. Babək rayonunun Nehrəm kəndində yetişdirilən qarpızın dadı tamamilə seçilir. Əsrlərdir ki, nehrəmlilər bostan məhsulları əkib-becərir, yetişdirdikləri qarpızın böyüklüyü, dadı, tamı ilə çoxlarını heyrətləndirirlər. Sərinlik gətirən, böyük müalicəvi əhəmiyyəti olan qarpız Nehrəm əkinçiləri üçün həm də qazanc mənbəyidir.***

# Nehrəm qarpızı

Culfa-Babək magistral yolunun üstündə sıra ilə düzülən bostan məhsulları içərisində Nehrəm qarpızı göz oxşayır. Neçə illərdir, bu sahə ilə məşğul olan torpaq mülkiyyətçiləri yaxşı səriştə və təcrübə qazanıblar. Yol kənarında bir neçə torpaq mülkiyyətçisi ilə həmsöhbət olduq. Öyrəndik ki, bu il sahibkar Cəmşid Həsənov 7 hektardan çox sahədə qarpız yetişdirib. Onun 3 övladı var. Hamısı da əkin-biçinlə məşğul olur. Əldə olunan qazanc ailəsinin tələbatını tamamilə ödəyir. O, qarpızın becərilmə üsullarından da danışdı. Dedi ki, aprel ayının sonu, may ayının əvvəllərində bostan məhsullarının əkininə başlayırıq. Kollar çiçəkləyənə qədər bir neçə dəfə su veririk. 3-4 dəfə tarlada alaq işləri aparır, kolların diblərini boşaldır, vər qoyuruq.



Digər sahibkar Rasim Məmmədov cari ilin əkin mövsümündə müxtəlif qarpız və qovun sortlarının toxumlarından istifadə edib. Əkinlərə aqrotexniki qaydada qulluq göstərib. Hər hektardan isə 40 ton məhsul əldə edib. Dediyinə görə, əvvəllər bir sıra problemlərlə qarşılaşsa da, indi bunlar tamamilə aradan qaldırılıb. Su sarıdan heç bir çətinlik yoxdur. Texnika ilə təchizat yetərincədir. Yetişdirilmiş məhsulun satışına da hərtərəfli şərait yaradılıb. O da ailəsi ilə birlikdə bu imkanlardan səmərəli istifadə edir və çəkdiyi zəhmət hədər getmir. Bu il də xeyli gəlir əldə edib, hələ özünün zarafatla dediyi kimi, deyəsən, qar yerə düşənəcən sahədə məhsulu olacaq.

Nehrəm qarpızından söhbət açmışkən onu da qeyd edək ki, yay aylarında ən çox istifadə etdiyimiz bu məhsulun insan orqanizmi üçün bir çox xeyrindən hələ də çoxlarının xəbəri yoxdur. Həkimlərin dediyinə görə, qarpız xərçəng xəstəliyinin müalicəsində xüsusi əhəmiyyətə malikdir. Qarpızın tərkibi xərçəng xəstəliyinin müalicəsində önəmli hesab edilən likopen və sitrolin ilə zəngindir. Qarpız həmçinin sərinləşdirici təsir göstərməklə yanaşı, iştahaaçandır, göz, mədə ağrısının qarşısının alınmasında da faydalıdır.

Onu da qeyd edək ki, nə qədər dadlı, xeyirli və yay aylarında əvəzsiz qida olsa da, qarpızın insanı zəhərləmə təhlükəsini də yaddan çıxarmaq lazım deyil. Həkimlərin dediyinə görə, zəhərlənmə halları əsasən, məhsul yetişdirilərkən azotdan daha çox istifadə edildikdə, dərildikdən sonra gün altında çox qaldıqda və keyfiyyətini itirdikdə baş verir. Kəsildikdən sonra bir müddət qalmış və antisanitariya vəziyyətində satılan qovun-qarpız yemək təhlükəlidir.

Ümumiyyətlə, bu gün muxtar respublikamızda dadlı və keyfiyyətli məhsullar yetişdirmək üçün hər cür şərait var. İnsanların torpağın əsl sahibinə çevrilməsi, sahibkarlara kreditlərin verilməsi, su anbarlarının yaradılması, meliorasiya sistemlərinin yüksək səviyyədə təkmilləşdirilməsi buna imkan verir. Artıq bərəkətli və münbit torpaqlarımızda yetişdirilən keyfiyyətli məhsullarımız xaricdən gətirilən və tərkibi bəlli olmayan məhsulları sıxışdırıb bazardan çıxarmaqdadır. Öz torpaqlarımızda belə məhsulları yetişdirmək imkanları yetərincə olsa da, bəzi məhsulları tənbəllik ucbatından kənardan alınan, xarici görünüşü gözəl, lakin keyfiyyətcə yararsız olan məhsullarla əvəz etmişik.

Unutmamalıyıq ki, bəzi ölkələr, sadəcə, öz keyfiyyətsiz məhsullarını, bitki sortlarını, toxumlarını biznes xatirinə xaricə ixrac edirlər. Xaricdən gətirilən hər hansı bir meyvəni kəsirsən, üstündən bir həftə keçir, nə xarab olur, nə də qaralır. Deməli, bunun geni dəyişdirilib. Bu meyvə insan orqanizmi üçün çox zərərli və təhlükəlidir. Ona görə də çalışmalıyıq ki, bitki sortlarımız, toxumlarımız sıradan çıxmasın. Nehrəm qarpızının, necə deyərlər, dəyərini bilən nehrəmlilər bu qiymətli məhsula belə baxırlar.

**Sara ƏZİMOVA**

# Güləş üzrə Naxçıvan şəhər birinciliyi

***İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yeniyetmələr (2006-2008-ci illər təvəllüdlü) arasında sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.***



Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 10 çəki dərəcəsi üzrə 50-dən çox güləşçi mübarizə aparıb.

Tədbirin açılış mərasimində çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov bildiriblər ki, birinciliyin keçirilməsində məqsəd yeniyetmələri zərərli vərdişlərdən uzaqlaşdırmaq, onları sərbəst güləş idman növünə cəlb etməklə bu idman növünün inkişafına və kütləviliyinə nail olmaqdır.

Yarışın keçirilmə qaydaları haqqında da idmançılara geniş məlumat verilib.

Beynəlxalq Güləş Federasiyasının mövcud qaydalarına əsasən keçirilən yarışda Sinan Rzayev, Hidayət İbrahimov, Namiq Əlizadə, Uğur Cəfərov, Ülvi İsmayılov, Ləzgi Xudadanlı, Altay Hacıyev, Nurlan Musayev, Mətin İmanov və Mirsadiq Seyidov müvafiq olaraq 20, 23, 26, 29, 32, 35, 38, 42, 46 və 53 kiloqram çəki dərəcələrində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək zirvəsinə qalxıblar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

**Xəbərlər şöbəsi**

# *"Oxu, qavra!"* adlı mütaliə yarışı keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın tətil günlərində sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkili bəndinin icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti tədbir təşkil olunub.

Avqustun 10-da Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud 10 uşağın iştirakı ilə "Oxu, qavra!" adlı mütaliə yarışı keçirilib.

Yarış iştirakçıları bir saat ərzində elektron kitabxananın kataloqunda olan bədii ədəbiyyatdan seçilən hekayəni oxumaqla onun məzmununa aid tərtib olunan test suallarını cavablandırıblar. Ən çox sualı düzgün cavablandıran iştirakçı yarışın qalibi olub. Yarışda ilk üç yeri tutan uşaqlara hədiyyələr, digər yarış iştirakçılarına isə həvəsləndirici mükafatlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*İtmişdir*

Həsənova Ayna Əlağa qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 611